# Esselər



Qərib MEHDİ

## ZƏLİMXAN YAQUB YADDAŞI



Bir şair, bir insan olaraq Zəlimxan Yaqubu yüksəkdə saxlayan çox keyfiyyətləri var. Bu keyfiyyətlərin içində xüsusən hamı onun fenomenal yaddaşından heyrətlə danışır. Xalq şairi, Aşıqlar Birliyinin sədri Zəlimxan Yaqubun yaddaşı tarixin eraları kimi qat-qatdır. Tanrının bu möcüzəli töhfəsinin açımına ancaq Dədə Ələsgərin möcüzəsi ilə yanaşmaq olar: "Yeddi qat qaladır - nə daş, nə kərpic...". Xoş olan odur ki, Zəlimxanın yaddaşı xeyirə, işığa, türkün şərəf gətirdiyi bəşərə xidmət edir.

Yaddaşını yadların daşı ilə hörən bir "ziyalı" da tanıyıram. Adı "bəlli" bu adamın adını dilə, ağıza gətirib ağzımı ağrıtmaq istəmirəm. O, həmişə üzünü qiblə əvəzi Kremlə tərəf tutur. Rusiyasız yaşamağımızı mümkün saymır. Azadlığımız, müstəqilliyimiz haça ox kimi gözlərinə batır. Məxsus olduğu millətə, onun yetirmələrinə nifrət bəsləyir. Sinəmizə çəkilən 37, qanlı 20 Yanvar dağları, Xocalı faciəsi, 31 mart soyqırımı teztez and içdiyi vicdanını silkələyib oyatmır. Elə hey türk ellərini zəbt edən İvan Qroznunu, Birinci Pyotru, Lenini, Stalini tərifləyir. Başa düşmək olmur ki, bu qədər suyu haradan alır? Axı nə qədər düşmən dəyirmanına su tökmək olar? Təəssüf ki, hələ də bizim bu cür üzdəniraq "milli cuvarlarımız" mövcuddur.

Nə yaxşı ki, yad-yağı daşından hörülmüş yaddaşların qarşısında doğma-doğru Zəlimxan yaddaşı dayanır. Bu yaddaşı bütövlükdə ortalığa qoymaq mənim gücümdə deyil. Sadəcə, müəyyən nümunələr göstərə bilərəm.

Zəlimxan yaddaşının damında Allah və onun sonuncu rəsulu Məhəmməd peyğəmbər qərar tutur.

Türkün ayağı dəydiyi yer onun səltənətlərinin, dövlətlərinin xəritəsidir. Bu böyük toplumun, etnosun yadda qalacaq, tarixi zənginləşdirəcək, dərs kitabına çevriləcək kimləri, nələri var? Uzağa getməyək, bunların hamısının cavabı Zəlimxan şeirlərinin bəzəyi olan Zəlimxan yaddaşında asanlıqla tapılacaq.

Zəlimxan yaddaşını tükənməz bir mədən kimi yüz illərdən bəri qazıyırsan - Turan ellərini ayaq üstə qoyan sərkərdələr, dövlət xadimləri boy verir: Mete, Atilla, Bilgə xan, Əmir Teymur, Soltan Səncər, Osmanlılar, Şah İsmayıl, Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Səttar xan, Mustafa Kamal Paşa - Atatürk, Məhəmməd Əmin Rəsulzadə, Heydər Əliyev...

Zəlimxan yaddaşını vərəqləyirsən - dastanlara, eposlara qovuşursan: sazlı-sözlü "Dədə-Qorqud", "Abbas və Gülgəz", "Qurbani" dastanları, "Manas", "Koroğlu" eposları...

Zəlimxan yaddaşını oyadırsan - gör görüşünə kimlər, hansı söz-qələm ustadları gəlir: Nizami Gəncəvi, Məhsəti Gəncəvi, Füzuli Bağdadi, Xaqani Şirvani, Nəsimi Şirvani, Yunis Əmrə, Aşıq Veysəl, Qaracaoğlan, Dadaloğlu, Akif Mehmet Ərsoy, Aşıq Ələsgər, Ələkbər Sabir, Hüseyn Cavid, Mikayıl Müşfiq, Balaş Azəroğlu, Söhrab Tahir, Məmməd Araz, Hüseyn Arif, İsa Muğanna...

Bu qısa siyahı təkcə Zəlimxanın əzbərindən, dilindən deyil, həm də qələmindən keçir.

Zəlimxan yaddaşında param-parça olmuş Azərbaycan xüsusi yer tutur. O, bu gün müstəqil dövlət halında olan Şimali Azərbaycanla qürur duyur. Cənubi Azərbaycan, Borçalı, Göyçə, Dəmir Qapı Dərbənd kimi torpaqlarımız və köhnə-təzə yaramız olan Dağlıq Qarabağ nisgili isə bir ağrı olaraq canında, qəlbində yaşayır.

Zəlimxan Yaqub gələcəyə böyük ümidlə baxır. O, Türk-Turan varlığını ələk-vələk etdikdən son-ra bu qərara gəlir: "Əvvəl-axır dünya türkün olacaq". Əlbəttə, ədalətilə, azsaylı xalqları özü ilə bərabər tutmağıyla.

Yaddaşı olmayan millətin gələcəyi də yoxdur. Hər birimizin yaddaşının Zəlimxan yaddaşı olma-ğına böyük ehtiyac var. Yaddaş hər bir xalqın, o cümlədən, Azərbaycan türkünün kimlik sənədidir.

Aşıq Ələsgər barlı-bərəkətli, seyrangahlı "Yaylağ"ın vəsfini belə yekunlaşdırır: "Görüm səni var ol, yaylaq". Mən də Zəlimxan Yaqub yaddaşına heyranlığımı həmin bucaqdan bildirirəm: Var ol, səni belə yaddaş!

*02 fevral 2015*

## DUMAN

Qış yağışı, qarı, dumanı ilə gəlmişdi. Kiminsə nurani üzünə görə soyuq fəsil hələ silahlarını işə salmamışdı. Xoş bir gün idi. Günəş qızdırıcı şəfəqlərini ətrafa səpirdi. Sərnişinlər qışın bu səxavətindən çox razı qalmışdılar.

Avtobus hələ uzun yol qət edəcəkdi. Öz aralarında astadan danışan sərnişinlər başqa bir aləmdəydilər. Onlar qəza törəməsin deyə, sürücüdən ehtiyatlı olmağı xahiş etmişdilər. Bu günün yaz havasına oxşaması sürücünü müəyyən qədər arxayın salmışdı.

Avtobusda uşaqlı-böyüklü çox adam vardı. Bir də dinib-danışmayan başqa bir sərnişin. Bu adam heç kimin diqqətini çəkmirdi. Haradan gəlib hara getdiyini bilən yox idi. Üzü ilə birlikdə başı da təraşlanmışdı. Papağından tutmuş əyin geyiminə qədər hamısı nimdaş idi. O qədər də böyük olmayan torbasını ayaqlarının arasına yerləşdirmişdi. Kədər, üzlü qonaq kimi sifətindən çəkilib getmək istəmirdi. Deyəsən, gedəcəyi yerdə heç kim onu qarşılamayacaqdı. TəklƏndiyi hiss olunurdu. Həbsxanadan təzəcə çıxmış məhbusa da (indi onu "məhbus" sözü ilə təsəvvür etmək qəbahət olardı. Hələlik başqa adla xəyala gətirmək də mümkün deyildi) oxşayırdı. Hərdən ətrafa boylanan ağıllı baxışları onda sıradan olmayan bir adam təsəvvürü yaradırdı. Son qənaətə gəlmək çətin idi. Ağız açılıb dil tərpənsəydi, iş asanlaşacaq, qəribə sərnişinin kimliyi bilinəcəkdi. Hələ ki, o ağız açılmır, o dil tərpənmək bilmirdi.

Qış havası ilə hiyləgər namərd adamın xasiyyətində bir oxşarlıq var. Hər ikisi gözlənilmədən dəyişə bilir. Müşahidə olunan hal bu dəfə də özünü doğrultdu. Birdən-birə qış günəşi ona arxayın olmuş adamları dar ayaqda qoyub yoxa çıxdı. Fürsətdən istifadə edən qatı duman hər yanı bürüdü. Beş addımlıqdan gözgözü görmürdü. Can hayına qalmağın təşvişi, narahatlığı çaxnaşmaya səbəb oldu. Təcrübəli sürücü dərhal avtobusun sürətini aldı. Əlavə olaraq, qarşı tərəfə yönələn xəbərdarlıq işıqlarını da yandırdı. Kəskin hava dəyişməsi yalnız qəribə sərnişinin halına təfavüt etməmişdi.

Sərnişinlər sürücünü ehtiyatlı olmağa səslədilər. Ön sıradakı adam:

- Ay şofer, sən Allah, ehtiyatlı ol! Özümüz cəhənnəm, yanımızda arvad-uşağımız var, onları güdaza verə bilərik!.. Gör nə bəlaya düçar olduq, ən yaxını - beş addımlığı ancaq görmək olur.

Orta sıradan səs gəldi:

- Lənətə gəlsin belə dumanı! Necə də sıxdır. Şofer, bəlkə, maşını bir tərəfə çəkib gözləyəsən. Duman çəkiləndən sonra yola düşərik. Mən iki addımlığı zorla seçirəm. Bundan da böyük bədbəxtçilik olarmı?

Arxadan gələn xırıltılı səs sərnişinlərin həyəcanını bir az da artırdı:

- Ha boylanıram, ancaq yaxını görürəm. Bunun axırı fəlakətlə nəticələnəcək!..

Yaxını görmək əndişəsi, nəhayət, qəribə sərnişinin də dilini açdı. O, lap Sokrat kimi, soyuq-qanlılıqla dilləndi:

- Təlaş keçirməyə elə bir səbəb yoxdur. Yaxını görmək ziyan gətirməz. Tarixi yada salın. Bütün bəlalar uzağı görməkdən törəyir...

*21 dekabr 2014*